# Sakinlər sabaha nikbin baxırlar

***Prezident İlham Əliyevin əhalinin problemlərinin yerində öyrənilməsi, həll edilməsi, barədə tapşırıqları Qəbələ rayonunda daim diqqət mərkəzində saxlanılır.***

***Ölkə başçısının "Xalqla dövlət məmuru hər zaman bir yerdə olmalıdır" sözlərinə uyğun olaraq Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev mütəmadi olaraq vətəndaşlarla görüşür, onların problemləri, təklif və qayğıları ilə maraqlanır, həlli istiqamətində zəruri tədbirlər görür.***

## Uludaş kəndi



Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Uludaş kəndində görüş-qəbulu olub.

Görüşdə RİH-nin məsul işçiləri, hüquq-mühafizə orqanlarının, xidmət sahələrinin rəhbərləri və kənd sakinləri iştirak edib.

Tədbiri açan rayon icra hakimiyyətinin başçısı ölkəmizin sürətli sosial-iqtisadi inkişafından, Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına uyğun olaraq Qəbələ rayonunda həyata keçirilən sosial infrastruktur layihələrindən, aparılan genişmiqyaslı abadlıq-quruculuq işlərindən danışıb.



RİH-nin başçısı bildirib ki, tikintisi yeni başa çatdırılan Nic-Mıxlıqovaq-Yemişanlı-Uludaş-Tikanlı-Abrıx asfalt yolunun kənd sakinlərinin istifadəsinə verilməsi və hazırda kəndi rayon mərkəzi ilə birləşdirən yolda, Bum çayı üzərində böyük və müasir körpünün inşasına başlanılması son illər ərzində bu yaşayış məntəqələrinə göstərilən diqqət və qayğının yüksək təzahürüdür.

Sonra kənd sakinləri dinlənilib.

Çıxış edənlərdən Məcid Həmidov, Məhəmmədəli Nəsrullayev, Mürvət Bəkirov, Sevinc Qaçayeva, Oqtay Məmmədov, Qərib Qaçayev və digərləri rayonda aparılan abadlıq-quruculuq işlərinə, vətəndaşlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Onlar Uludaş kəndinə qaz xəttinin çəkilməsinə, işıq xətlərinin və trnsformatorun təmir olunmasına, yeni yaşayış massivində artezian quyusunun qazılmasına, kəndin mərkəzi yolunun təmir olunmasına, məktəbdə yardımçı sinif otaqlarının inşa olunmasına və ərazidə sel sularına qarşı beton mühafizə bəndinin tikilməsinə köməklik göstərilməsini xahiş ediblər.

Sakinləri narahat edən məsələlərlə bağlı verilən sualları ətraflı cavablandıran RİH başçısı qaldırılan məsələlərin həlli istiqamətində müvafiq qurumlara tapşırıqlar verib.

## Seyidqışlaq kəndi

Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin növbəti səyyar görüş-qəbulu Seyidqışlaq kəndində keçirilmişdir.



Görüşdə RİH-nin məsul işçiləri, hüquq mühafizə orqanlarının, xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak etmişlər.

Görüş-qəbulu açan rayon icra hakimiyyətinin başçısı kənd sakinlərinə Prezident İlham Əliyevin tapşırığına əsasən rəhbər işçilərin əhali ilə keçirdikləri səyyar görüşlərin əhəmiyyətindən danışmış, belə tədbirlərin yerlərdə görülmüş və görüləcək işlərlə daha yaxından tanış olmaq, əhalini narahat edən problemləri daha dərindən öyrənmək üçün yaxşı imkan yaratdığını diqqətə çatdırmışdır.

RİH-nin başçısı tədbir iştirakçılarına Prezident İlham Əliyevin rəhbərliyi ilə ilin ötən dövrü ərzində ölkədə və rayonda həyata keçirilən sosial-iqtisadi və abadlıq-quruculuq işləri barədə məlumat vermişdir.

Kənd ictimaiyyətinin nümayəndələri dövlət başçısının apardığı islahatların, ölkədə və rayonda görülən işlərin, həyata keçirilən layihələrin möhtəşəmliyini dərk etdiklərini bildirərək, bütün bunlara görə Prezident İlham Əliyevə minnətdarlıqlarını ifadə etmişlər.

Çıxış edənlərdən Həzi Umarov, İlqar Məmmədov, Yanvar Həmidov, Ağarza Ağayev, Qurban Bədəlov, Ətraf Cavadov və başqaları RİH-nin başçısından Vəndam-Seyidqışlaq yolunun asfaltlaşdırılmasına, kəndin içməli su ilə təminatının yaxşılaşdırılması üçün yeni artezian quyusunun qazılmasına, işıq xətlərinin yenilənməsinə,



Vəndam çayının yaşayış məntəqəsinin ərazisindən keçən hissəsinin qum-çınqıldan təmizlənməsinə, çayın üzərində körpü inşa edilməsinə və kəndə qaz xəttinin çəkilməsinə köməklik göstərilməsini xahiş etmişlər.

Çıxışlarda qaldırılan məsələlərin həlli istiqamətində müvafiq tədbirlərin görülməsi məqsədilə əlaqədar təşkilatların rəhbərlərinə konkret tapşırıqlar verilmişdir.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının vacib rolu vardır

***Seçki hüququ beynəlxalq hüquq normaları səviyyəsində qəbul edilmiş müasir, demokratik cəmiyyət üçün vacib dəyərlərdən biri hesab olunmaqla BMT-nin Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi Ümumdünya İnsan Hüquqları Bəyannaməsində də öz əksini tapmışdır.***

***Ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hazırlanaraq ümumxalq səsverməsi yolu ilə 1995-ci ildə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkəmizdə demokratik standartlara cavab verən azad, ədalətli, obyektiv seçkilərin keçirilməsi üçün əsas prioritetləri müəyyənləşdirdi. Konstitusiyanın 4-cü maddəsinə əsasən, xalqın seçdiyi səlahiyyətli nümayəndələrdən başqa heç kəsin xalqı təmsil etmək, xalqın adından danışmaq və xalqın adından müraciət etmək hüququ yoxdur. Əsas Qanunun 56-cı maddəsinə əsasən, hər bir Azərbaycan vətəndaşının dövlət orqanlarına seçmək və seçilmək, habelə referendumda iştirak etmək hüququ var.***

Seçki hüququ geniş anlayış olmaqla vətəndaş hüquqlarının başlıca təzahürlərindən biri hesab edilir. Azərbaycan Respublikası Seçki Məcəlləsinin 1.1.8-ci maddəsinə əsasən, seçki hüququ Azərbaycan Respublikası Milli Məclisinin deputatlarını, Azərbaycan Respublikasının Prezidentini, bələdiyyələrə üzvləri seçmək və həmin orqanlara, Azərbaycan Respublikasının Prezidenti vəzifəsinə seçilmək hüququ, o cümlədən namizədlərin irəli sürülməsində, seçkiqabağı (referendumqabağı) təşviqatda, seçki (referendum) komissiyalarının işində, seçkilərin (referendumun) nəticələrinin müəyyən edilməsində daxil olmaqla səsvermədə, digər seçki (referendum) hərəkətlərinin həyata keçirilməsində iştirak etmək hüququdur.

1993-cü ildən indiyədək keçirilən bütün seçkilərə, referendumlara, həmçinin ayrı-ayrı vaxtlarda parlamentə və bələdiyyələrə təyin olunmuş əlavə və təkrar seçkilərə dair beynəlxalq təşkilatların verdikləri müqayisəli rəylər onu təsdiq edir ki, Azərbaycanda seçkilərdən-seçkilərə vəzifələrə seçki praktikası və mədəniyyəti daha da yüksəlmişdir.

Azərbaycan Respublikasının Seçki Məcəlləsinə müvafiq olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası tərəfindən növbəti bələdiyyə seçkiləri 23 dekabr 2019-cu il tarixə təyin olunmuş və Seçki Məcəlləsinin 213.2-ci maddəsinə uyğun olaraq 19 oktyabr 2019-cu il tarixdə "Azərbaycan" qəzetində dərc olunmuşdur.

Yerli özünüidarəetmə sisteminin formalaşdırılması prosesi Azərbaycanda demokratik inkişafın əyani nümunəsidir. Bu baxımdan hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, dövlət və cəmiyyətin idarə olunmasının səmərəliliyinin artırılması istiqamətində hakim Yeni Azərbaycan Partiyası tərəfindən atılan addımlar bələdiyyələrin fəaliyyətində öz ifadəsini tapmaqla yanaşı, respublikamızda yerli idarəetmə orqanlarının işinin təşkilinə mühüm töhfə vermişdir. Ulu öndər Heydər Əliyev dövlət və cəmiyyətin idarə olunmasında bələdiyyələrin rolunu yüksək qiymətləndirərək qeyd etmişdir ki: "Yerli özünüidarəetmənin yaradılması Azərbaycanda gedən demokratik proseslərin böyük bir hissəsi, böyük bir qoludur. Demokratik, hüquqi dövlət, dünyəvi dövlət qurmaq prosesinin bir hissəsi, bir sahəsidir". Ümummilli liderimizin fikirləri bu gün real həyatda öz əksini tapmışdır.

Vətəndaşalrın seçki hüquqlarının qorunmasında prokurorluq orqanlarının xüsusilə vacib rolu vardır. Həmçinin bələdiyyə seçkilərinin demokratik və şəffaf prosedurlar əsasında keçirilməsi, habelə, ölkə vətəndaşlarının seçki hüquqlarının tam təmin olunması üçün seçki hüquqpozmalarının qarşısının alınmasında prokurorluq orqanlarının müvafiq vəzifələri vardır.

Seçkilərin demokratik və şəffaf prosedurlar əsasında keçirilməsi, habelə, ölkə vətəndaşlarının seçki hüquqlarının tam təmin olunması üçün seçki hüquqpozmalarının törədilməsinə görə məsuliyyətin müəyyən edilməsi və bu neqativ amillərlə səmərəli mübarizə mexanizminin yaradılması da mühüm əhəmiyyət kəsb edən amildir. Seçki hüququnun pozulması dedikdə, vətəndaşların ali dövlət hakimiyyətinə, yerli özünüidarə orqanlarına nümayəndə seçmək və seçilmək, referendumlarda iştirak etmək hüquqlarının həyata keçirilməsinə istənilən maneçiliklərin törədilməsində, bu hüquqların həyata keçirilməsi üçün lazımi şəraitin yaradılmamasında, o cümlədən qanunvericiliklə üzərinə seçkilərin təşkili və keçirilməsi vəzifəsi qoyulmuş vəzifəli şəxslərin, təşkilatların, qurumların öz vəzifələrini lazımınca yerinə yetirməməsində, seçki subyektlərinin qanunvericiliklə müəyyən olunmuş normalara riayət etməməsində ifadə olunan əməllərdə öz əksini tapır.

Seçki qanunvericiliyinin pozulmasına görə məsuliyyətin əsasları və növləri ilk növbədə Seçki Məcəlləsi ilə müəyyən edilir. Məcəllənin 16-cı fəsli bilavasitə vətəndaşların seçki hüquqlarının pozulmasından şikayət və vətəndaşların seçki hüquqlarının pozulmasına görə məsuliyyət məsələlərini tən-

(Ardı 4-cü səhifədə).